UOT: 821.411.21
https://doi.org/10.59849/2311-8482.2025.4.21

SEVİNC HƏZRƏTQULİYEVA*

# ƏRƏB ƏDƏBİYYATINA MƏXSUS SİRƏ JANRI VƏ ONUN "BƏNU-HİLAL" DASTANINDA TƏZAHÜRÜ

*Bu məqalədə ərəb ədəbiyyatına məxsus sirə janrının əsas xüsusiyyətləri və onun ən məşhur epik təzahürlərindən biri olan "Bənu Hilal" dastanındakı rolu araşdırılır. Sirələrin süjetini, strukturunu, bədii və ifadə vasitələrin öyrənilməsi geniş ədəbi-nəzəri biliklər əldə edilməsi deməkdir. Sirə janrı özündə müsəlman dünyasının tarixini Ərəb sirələrində bədəvi qəbilələrin həyatı və adətləri, qəbilə müharibələri, habelə Asiya, Avropa və Afrikadaki ərəb-müsəlman fəthləri, ərəblərin səlibçilərlə müharibələri birbaşa əksini tapmışdır.*

*Sirə janrı ərəb ədəbiyyatında sadəcə bir ədəbi forma deyil, həm də bir xalq yaddaşı və mədəniyyət və mədəniyyət daşıyıcı funksiyasını yerinə yetirir. Bu janr vasitəsilə nəsillər arasında dini dəyərlər, qəhrəmanlıq nümunələri və milli kimlik şifahi və yazılı şəkildə ötürülmüşdür. Sirə janrının tarixi gerçəkliklə və poetik fantaziya ilə vəhdət təşkil etməsi, onun həm tarix elmi baxımdan, həm də ədəbiyyatşünsalıq dəyərini artırır. Bu səbəbdən sirə janrın öyrənilməsi və qorunması, ərəb mədəni irsinin başa düşülməsi baxımından mühüm əhəmiyyət kəsb edir.*

***Açar sözlər:*** *Sirə janrı, sirə növləri, ərəb ədəbiyyatı, "Bənu Hilal" dastanı, Hilal qəbiləsi.*

## Giriş

Ərəb ədəbiyyatı zəngin və çoxşaxəli bir ədəbi irsə malikdir. Bu ədəbiyyatın formalaşmasında və müxtəlif janrların inkişafında tarix, din, qəhrəmanlıq və xalq ruhu mühüm rol oynamışdır. Sirə janrı, xüsusilə də İslamın ilk dövrlərində və orta əsrlərdə ərəb ədəbiyyatında həm tarixi, həm də xalqın tarixi yaddaşını əks etdirən ədəbi forma kimi də dəyərləndirilir. Bu janrın əsas məqsədi müəyyən bir şəxsiyyətin: peyğəmbərin, qəhramanın və ya qəbilə başçısının həyatını təsvir etmək və onun vasitəsilə ideoloji, dini və əxlaqi dəyərləri nəql etməkdir. Sirə janrın ən parlaq nümunələrindən biri isə Bənu Hilal dastanıdır. Bu dastanda qəhrəmanlıq, sədaqət, qəbilə kimliyi və İslam dəyərləri epik çərçivədə təqdim olunur. Məhz bu xüsusiyyətlər sirə janrını ərəb ədəbiyyatında həm tarixi sənəd, həm də bədii irs kimi vacib edir.

Sirə ərəb mənşəli sözdür ( السيرات) və tərcümədə "hərəkət etmək", "yürüş, yol", "həyat tərzi" və ya "tərcümeyi-hal" mənasını verir. Sirə janrı ədəbiyyatda bir şəxsiyyətin, ən cox Məhəmməd peyğəmbərin və ya qəhrəmanlıq göstərmiş tarixi və ya mifoliji simaların həyat yolunu, döyüşlərin, xalqla münasibətlərini təsvir edən ədəbi janrdır. Bu janr həm yazılı, həm də şifahi ənənədə inkişaf etmişdir və ərəb ədəbiyyatında tarix, dastan və folklorun kəsişdiyi bir nöqtə kimi mühüm yer tutur. Sirə janrına aid əsərlər adətən çoxcildli olur və həm tarixi faktlar, həm də xalq təxəyyülünün məhsulu olan fantastik hadisələr təsvir olunur. Burada qəhrəmanın doğumu, böyüməsi, mübarizəsi, sınaqları və nailiyyətləri mərhəli şəkildə verilir.

Sirələr tez-tez aşıqlar və nağılçılar tərəfindən xalq arasında söylənirdi. Bir çox sirələr dini kontekstdə inkişaf edib, xüsusilə peyğəmbərin və ya İslam qəhrəmanlarının həyatı əsas mövzu olur. Sirə janrı milli və dini kimliyin formalaşmasına yardım edir, tarixi yaddaşı qoruyur və nəql edir, əxlaqi və dini dərslər verir və cəmiyyətin qəhrəmanlıq ideallarını təbliğ edir.

Sirə janrı müxtəlif qəhrəmanlar və tarixi dövrlərlə bağlı müxtəlif formalarda mövcuddur. Ən tanınmış sirə növlərinə aşağıdakılar daxildir:

1. **Klassik (tarixi) sirələr** əsasən Məhəmməd peyğəmbərin (s.a.s.) həyatı və fəaliyyəti ətrafında formalaşır. Məqsəd onun həyatını təbliğ etmək, sahabələrinin davranışlarını və İslamın yayılmasını göstərməkdir. Bura İbn İshaqın İbn Hişam tərəfindən redaktə edilmiş "Sirətu Rasulillah" əsəri aiddir. Xilafət dövründə yazıya keçirilən əsər, sonra orta əsr ərəb tarixçisi Tabari tərəfindən daha da redaktə olunmuşdur. "Sirətu Rəsulillah" kitabları İslamın yaranması və inkişafı

ilə bağlı geniş bir mövzu spektrini əhatə edir. Sirə konkret olaraq Məhəmməd Peyğəmbərin (s.ə.s) həyatını, əxlaqını, cəmiyyətə etdiyi təsiri və müsəlmanların qarşılaşdığı çətinlikləri ətraflı şəkildə izah edir. Əsasən, burada Peyğəmbərin həyat yolu, İslamın təbliğinə başlamaq, İslam cəmiyyətinin qurulması, sosial və dini islahatlar və müsəlmanların qarşılaşdığı çətinliklər bəhs edilir. Adı çəkilən sirə həmçinin Məhəmməd Peyğəmbərin (s.ə.s) həyatının mükəmməl bir təlim olduğuna diqqət çəkir, çünki onun hərəkətləri və təcrübələri İslamın mənəvi, sosial və hüquqi prinsiplərini əhatə edir.

**2. Qəhrəmanlıq sirələri** ərəb ədəbiyyatında həm xalq ruhunu, həm də tarixi-mədəni yaddaşı əks etdirən dəyərli janrdır. Burada qəhrəmanların döyüşləri, səfərləri, qəhrəmanlıqları təsvir edilir. Tarixi faktlar bədii və fantastik elementlərlə zənginləşdirilir. Qəhrəmanlıq sirələrinə aid olan əsərlər şifahi ədəbiyyatın yazıya keçmiş forması kimi təkcə ədəbi yox, həm də folklor və tarix baxımından dəyərlidir. Onlar qəhrəmanlıq ruhunu təbliğ etməklə yanaşı, ərəb xalqlarının sosial və mədəni kimliyinin formalaşmasında mühüm rol oynayır. Bu janr xalqın kollektiv yaddaşını və ideal qəhrəman obrazlarını yaşatmaq məqsədi daşıyır. Qəhrəmanlıq sirələrini digər sirələrdən fərqləndirən əsas xüsusiyyətləri:

- Sirələr çox zaman tarixi şəxsiyyətlərə və hadisələrə əsaslansa da, fantastik və uydurma elementlərlə zəngin olur.
- Geniş zaman çərçivəsində və çoxlu sayda personajları əhatə edir, ədəbi dil sadə və axıcı olur, xalq dilinə yaxın olur.
- Əsərlər xalq arasında şifahi şəkildə nəsildən-nəsilə ötürülmüş və sonradan yazıya alınmışdır. Qəhrəmanlıq, şücaət, ədalət və vətənpərvərlik kimi motivlər əsas yer tutur.

Ərəb ədəbiyyatında bu janra bir neçə məşhur əsərlər aiddir. Bunlardan biri “Sirət Əntarə İbn Şəiddat”-dır (سيرة عنترة بن شداد). Əntarə əsl tarixi şəxsiyyətdir, Cəhilə dövrün tanınmış döyüşçüsü və şairidir. Bu sirədə onun qəhrəmanlığı, döyüşləri, Ablaya olan sevgisi təsvir olunur. Əntarə sirəsi qəhrəmanlıq və romantik sirələrin sintezi sayılır. Digər məşhur və geniş yayılmış sirələrdən biri, Hilali qəbiləsinin Ərəbistandan Şimali Afrikaya köçü, qəbilənin qəhrəmanlıq mübarizəsi təsvir olunan “ Bənu Hilal” sirəsidir (سيرة بني حلال ). Bu sirə həm ərəb dünyasında, həm də Afrika və Aralıq dənizi ətrafı xalqlarda məşhurdur.

Adı çəkilən sirələrlə yanaşı Misir və Şamda hakim olmuş məmlük sultanı Baybarasın həyatını əks etdirən “Sirət Əl-Zahir Baybars”( سيرة الظاهر بيبرس), Məhəmməd Peyğəmbərin (s.a.s) əmisi Həmzətül Əbdül Müttəlibin döyüşləri və qəhrəmanlığına əsaslanan dastan “Sirət əl-Həmzə” ( سيرة الحمزة) və əfsanəvi Yəmən hökmdarı Səif ibn Zi Yəzanın həyatını və İranlılarla, Afrikalılarla qarşı mübarizəsini təsvir edən “Sirət Səif ibn Zi Yəzan” (سيرة سيف بن زي يزن ) ən çox yayılmış qəhrəmanlıq sirələridir.

**3. Sufi və mənəvi sirələr** dini və mistik təcrübələrin ədəbi formada ifadəsidir. Bu sirələr məqsəd, zahiri qəhrəmanlıqlardan çox ruhi, kamillik, tövbə, zühd, Allah eşqini oxuyuca çatdırmaqdır. Bu sirələr adətən bir sufi şeyxinin, mürşidin həyat hekayəsini, mənəvi təcrübələrini, kəramətlərini və yaşadığı sınaqları təsvir edir. Sufi sirələr əksər hallarda nəsr formasında yazılsa da, bəzi hallarda nəzm və ya qarışıq üslubda (nəsr-nəzm) istifadə olunur. Bu sirələr öyüdverici xarakter daşıyır və əsas mövzuları Allah eşqi, nəfsin tərbiyəsi, dünya nemətlərində uzaqlaşma və möcüzəvi hadisələrdir.

“Abu Yəzid Bistami” sirəsi məşhur sufi alimi haqqındadır. Burada Allaha yaxınlığı, vəhdət təcrübələri, kəramətlər yer alır. Digər bir sirə ilahi eşq və zühd yolunda həyatını fəda etmiş qadın sufi haqqında bəhs edilən “Rabia əl Ədəviyyə” sirəsidir. “Cüneyd Bağdadi” sirəsi – təmkinli və elmi sufilik məktəbin banisi haqqındadır. Bu sirə həm təlim, həm də təfəkkür baxımından zəngindir.

Digər sufi sirələrdən biri isə, Qədriyyə təriqətinin banisi haqqında yazılımış və İslam aləmində geniş yayılmış “Əbdül Qadir” sirəsidir.

Sufi sirələrin əsas məqsədi dini və əxlaqi dərslər verməkdir. İslamın gözəlliklərini və doğru davranışları təbliğ etməkdir.

4. **Xalq arasında dolaşan folklorik sirələr** ərəb xalqının tarixi, qəhrəmanlıq və dəyərlərini nəsildən nəsilə ötürən ədəbiyyat formasıdır. Bu sirələr həm xalqın yaddaşını, həm də ədəbi yaradıcılığını qoruyur. Onlar şifahi ədəbiyyatla yazılı mədəniyyət arasında körpü rolu oynayır və ərəb dünyasında mühüm yer tutur. Folklorik sirələr uzun illər şifahi şəkildə yaşayıb, sonradan yazıya alınmışdır. Bunlar həm əyləndirici, həm didaktik, həm də tarixi yaddaşı qoruyan funksiyalar daşıyır. Burada hadisələr geniş zaman və məkan çərçivəsində baş verir, baş qəhrəman çox vaxt idealizə olunmuş, fövqəladə gücə malik şəxsdir. Qəhrəmanın əsas məqsədi ədaləti bərpa etmək, xalqını qorumaqdır.

5. **Əxlaqi və dini-pedaqoji sirələr** ərəb ədəbiyyatında həm dini təbliğat, həm də xalqın mənəvi tərbiyəsi baxımından vacib olmuşdur. Bu növ sirələr xalqın mənəvi dünyasını zənginləşdirmiş, dini bilikləri və əxlaq normalarını nəsillərə ötürmüşdür. Əxlaqi sirələr tərbiyəvi xarakter daşıyır, yaxşılıq, səbir, mərhəmət, ədalət kimi dəyərləri ön plana çıxarır. Əsərlərdə İslamın əsas prinsipləri, peyğəmbər əhvalatları, səhabələrin həyatından örnəklər yer alır. Xalq arasında asanlıqla yayılması üçün əxlaqi sirə əsrlərində sadə poetik formalar seçilir və sadə, anlaşıqlı dillə yazılır. Ən məşhur dini-pedaqoji sirələrdən biri Adəm, Nuh, İbrahim, Musa, İsa və Məhəmməd (s.a.s) peyğəmbərlərin həyatından ibrətamiz əhvalatlar nəql olunan “Qıssatül Ənbiya” (Peyğəmbərlər haqqında hekayələr) sirəsidir. Qurani - Kərimdə də adı çəkilən Luqman həkimin oğluna verdiyi hikmətli nəsihətlər əsasında formalaşan ibratəmiz hekayələrdən bəhs edən “Luqman həkimin nəsihətləri” sirəsi əxlaqi sirə növünün parlaq nümunələrindən biridir. Digər nümunə isə dini və əxlaqi mövzularda məzəli və dərsverici hekayələrdən ibarət, təmtəraqlı dillə yazılmış olsa da, dərin mənəvi məna daşıyan “Əl-Məqamat” sirəsidir. Bu əsərlər əsrlər boyunca həm xalq arasında danışılaraq, həm də yazılı şəkildə nəsillərə ötürülmüşdür.

Epik sirələrdən ən məşhurlardan biri “Sirət Bənu Hilal” – yəni “Bənu Hilal” dastanıdır. Bu əsər Hilal qəbiləsinin Ərəbistan yarımadasından Şimali Afrikaya köçü, qəhrəmanlıq mübarizələri və qəbilələrarası qarşıdurmalar fonunda yazılmışdır. Dastanın əsas qəhrəmanlarından biri Əbu Zeyd əl-hilali olub, onun həyat hekayəsi, müdrikliyi və igidliyi geniş şəkildə təsvir olunur. Bu sirədə qəhrəmanlar idealizə edilir, onların igidlikləri və sədaqətləri bədii şəkildə ucaldılır. Dastanda qəbilənin soy-kökü, məslək formada ötürülən mərasimləri, səhrada keçən sınaqları və möhtəşəm döyüş səhnələri sirə janrın klassik elementlərin əks etdirir.

Şeir parçaları – qəzəllər, rubai və mədhiyyələr qəhrəmanların daxili aləmini, dramatik gərginliyi artırmaq üçün istifadə olunur. Əbu Zeyd əl – Hilali epik şeirlərində qəhrəmanın taleyini və qəhrəmanlıq ideallarını poetik şəkildə ifadə edir.

Sirə janrı ərəb ədəbiyyatında həm tarixi, həm də poetik elementləri birləşdirən unikal bir mexanizimdir. “Bənu Hilal” dastanı bu ənənəni davam etdirərək qəbilə keçmişini, qəhrəmanlıq motivlərini və mənəvi dəyərləri yeni nəsillərə çatdırır. Bu dastan sirənin tarixi yaddaşı qorumaq, mədəni kimliyi gücləndirmək və ədəbi–estetik zənginliyi artırmaq funksiyalarını uğurla yerinə yetirir.

“Bənu Hilal” dastanında sirə janrın elementləri olduqca maraqlı və zəngindir. Sirə janrın əsas xüsusiyyətləri: tarixi və yarı-tarixi hadisələrə əsaslanmaq, real və əfsanəvi qəhrmanların obrazlarını birləşdirmək, mülkiyyət, qəhrəmanlıq, intiqam, ailə şərəfi və qəbilə mübarizəsi kimi mövzular ətrafında cərəyan etməsi, xalq yaddaşında formalaşaraq şifahi şəkildə nəsildən-nəslə ötürülməsi “Bənu Hilal” dastanında açıq şəkildə öz əksini tapır.

Dastan, Hilal qəbiləsinin Ərəbistan yarımadasından Şimali Afrikaya, xüsusilə, Misir və Tunis ərazilərinə miqrasiyasını əhatə edir. Bu uzun səfər çərçivəsində qəhrəmanların düşmənlərlə döyüşləri, qəbilə içi və qəbiləarası münaşiqələri, sədaqət və xəyanət hadisələri sirə janrın tipik elementləri kimi təqdim olunur. Dastanın baş qəhrəmanı  Əbu Zeyd əl-Hilali həm tarixi, həm də folklorik bir şəxsiyyət olaraq təqdim edilir. Onun qeyri-adi doğuluşu, müdrikliyi, igidliyi və çətin sınaqlardan keçməsi tipik sirə qəhrəmanı modelinə uyğundur.

Dastanda ailə və qəbilə şərəfinin qorunması, düşməndən intiqam, bacı-qardaş münasibətləri çox ön plandadır. Bu, sirənin təkcə qəhrəmanlıq yox, həm də əxlaqi və sosial cəhətlərə sahib olduğunu göstərir.

“Bənu Hilal” dastanın həm nəzm, həm nəsr formasında təqdim olunur, bu isə öz növbəsində dastanın estetik dəyərini artırır və eyni zamanda xalq ədəbiyyatının canlı ənənəsini qoruyub saxlayır. Bu qarışıq forma sayəsində dastan dinamik, emosianal və təmtəraqlı bir təqdimata çevirilir və onun xalq arasında uzun müddət yaşayaraq sevilməsinə şəarit yaradır. Nəsr hissələri əsas süjetin irəlilədiyi hissələrdir və hadisələr ardıcıl şəkildə nəql olunur. Nəsr hissələrində qəhrəmanın doğulması, böyüməsi, döyüşə getməsi, qəhrəmanlıq göstərməsi və digər mühüm hadisələr təsvir olunur. Nəzm hissələri yəni şeirlər duyğusal və emosional hissələri daha güclü ifadə etmək üçün istifadə olunur. Qəhrəmanların duel zamanı çağrışları, şücaət sözləri, şikayətlər və tərifər şeirlə təqdim olunur. Dastanın şifahi xalq ədəbiyyatında yaşaması və əruzçular tərəfindən xalq arasında oxunması sirənin əsas xüssiyyətlərindən biridir.

Dastanın əsas qəhrəmanı olan Əbu Zeydin qeyri-adi doğuluşu, qaradərili doğulması və bu səbəbdən qəbilə tərəfindən qəbul olunmaması, sehrli hadisələr və rəmzi xarakterli düşmənlər sirənin folklorik yönünü gücləndirir. Bu da onu sadəcə tarix yox, həm də epik-fantastik bir əsər kimi formalaşdırır.

**Nəticə**

“Bənu Hilal” dastanında sirə janrına xas olan bir sıra cəhətlər aydın şəkildə görünür: tarixlik və xalq yaddaşına əsaslanma, qəhrəmanlıq və vətənpərvərlik motivləri, bədii təxəyyül və şifahi xalq ədəbiyyatına bağlılıq. Əsər nəsrlə və nəzm-nəsr qarşığı nəql olunur və bu da onu həm oxunaqlı, həm də dinlənilməsi maraqlı edən amillərdəndir. Dastan əsrlər boyu şifahi şəkildə nəql olunaraq xalq ədəbiyyatının mühüm bir parçasına çevrilmişdir. “Bənu Hilal” dastanı sirə janrın ən bariz nümunələrindən biri olaraq məzmun və forma baxımından sirə ənənəsinin davamı və inkişafıdır. Bu cür sirələr yalnız bir ədəbiyyat nümunəsi deyil, həm də bir xalqın yaddaşı, tarixi və ideallarının bədii təcəssümüdür.

## ƏDƏBİYYAT


1. Bayramova, L.M. Ərəb Ədəbiyyatında sirə janrı: / filologiya üzrə fəlsəfə doktoru dis. Aftoreferatı. / - Bakı, 2024. – 60 s.
2. Beissinger, M. Epic Traditions in the Contemprary World: The Poetics of Community/ Tylus, J.   Wofford, S.  - Los Angeles: University of California Press, - 1999. – 323 p.
3. Cabrera, A. The Oral Epic of Banu Hilal, Journal of Arabic Literature. – 2005. 290 p.
4. Connelly, B. and.Epic Splitting: An Arab Folk Gloss on the Meaning of the Hero Pattern: Massie, Henry: Oral Tradition 4/1-2: 101-24
5. Dwight, F. Reynolds The Sirat Bani Hilal Digital Archive: Oral Tradition, -2013. 28/2 :271-278
6. Slyomovics, Susan Arabic Folk Literature and Political Expression Arab: Studies Quarterly, 8 (2): p. 178–185.

7. Slyomovics Susan E. Slyomovics. The Merchant of Art: An Egyptian Hilali Oral Epic Poet in Performance Berkeley: University of California Press.

8. Wadley, Susan Why Does Ram Swarup Sing In Appadurai et al. Arjun Appadurai/ Frank J. Korom, Margaret A. Mills, eds. Gender, Genre, and Power in South Asian Expressive Traditions. Philadelphia: University of Pennsylvania Press. – 1991. p. 201-203.

***AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun**
**Elektron resuslar şöbə müdiri**
**Email: sevinchezretquliyeva@gmail.com**
**+99455 420-68-68***

**Sevinj Hazratquliyeva**

## THE SIRAH GENRE IN ARABIC LITERATURE AND ITS MANIFESTATION IN THE "BANU HİLAL" EPİC

This article examines the main features of the genre of sirah in Arabic literature and its role in one of its most famous epic manifestations, the Banu Hilal epic. Studying the plot, structure, and literary devices of sirah entails acquiring extensive literary and theoretical knowledge. The sirah genre reflects the history of the Muslim world, including the life and customs of Bedouin tribes in Arabic sirah, tribal wars, as well as the Arab-Muslim conquests in Asia, Europe, and Africa, and the Arab wars with the Crusaders.

The sirah genre in Arabic literature is not only a literary form but also a repository of collective memory and culture, serving as a carrier of cultural functions. Through this genre, religious values, heroic examples, and national identity have been passed down orally and in writing between generations. The fusion of historical reality and poetic fantasy in sirah increases its value both from a historical scientific perspective and from a literary analysis standpoint. For this reason, the study and preservation of the sirah genre is of significant importance in understanding Arab cultural heritage.

**Keywords:** *Sirah genre, sirah types, the epic "Banu Hilal", the Hilal tribe.*

**Севиндж Хазратгулиева**

## ЖАНР СИРЫ В АРАБСКОЙ ЛИТЕРАТУРЕ И ЕГО ПРОЯВЛЕНИЕ В ЭПОСЕ «БАНУ ХИЛАЛ»

В данной статье рассматриваются основные особенности жанра сиры, характерного для арабской литературы, и его роль в одном из самых известных эпических проявлений — эпосе «Бану Хилал». Изучение сюжета, структуры и художественных средств сиры предполагает приобретение широких литературно-теоретических знаний. Жанр сиры отражает историю мусульманского мира, в арабских сиры изображены жизнь и обычаи бедуинских племен, племенные войны, а также арабско-мусульманские завоевания в Азии, Европе и Африке, войны арабов с крестоносцами.

Жанр сиры в арабской литературе — это не только литературная форма, но и память народа, а также носитель культуры. Через этот жанр передаются религиозные ценности, примеры героизма и национальная идентичность между поколениями как в устной, так и в письменной форме. Слияние исторической реальности и поэтической фантазии в жанре сиры

увеличивает его ценность как с точки зрения исторической науки, так и с точки зрения литературоведения. Поэтому изучение и сохранение жанра сиры имеет большое значение для понимания арабского культурного наследия.

**Ключевые слова:** *Жанр сиры, виды сиры, эпос “Бану Хилал”, племя Хилал.*

*Filologiya elmləri doktoru Akif İmanlı tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 01.10.2025**
**Son daxilolma tarixi:08.11.2025**